

■ Mirdamət Əziz

## TANRI RƏHM ETMƏZDİ...

Tapmaz dincliyini bircə an könlüm,
Əməllər əllərdən mərhəmət dilər,
Yüz böyük gözündə bulanan könlüm
Bir uşaq gözündə durula bilər.

Ağıl dəryasında qəm yelkən kimi,
Daşa çırpılanda söylənirəm mən,
Babamdan götürə bilmədiyimi
Vaxt olur, nəvəmdən öyrənirəm mən.

Körpə baxışlarda təbəssüm donsa,
Görərsən, ağlayan göydə Allahdır,
Bir uşaq üzünə bir şəfəq qonsa,
Hava tutulubsa, açılacaqdır.

Tanrı rəhm etməzdi günəşə, aya,
Baxmazdı, payızdı, yoxsa bahardı,
Uşaqlara görə dəymir dünyaya,
Yoxsa başımıza daş yağdırardı.

## İNDİ HƏYATIMIN HƏR GÜNÜ-CÜMƏ

Ətəkdə cığırlar boşalır, dolur,
İgidlər zirvəyə yol açmaqdadır,
İşıqda daşın da kölgəsi olur,
Hünər zülmətlərə nur saçmaqdadır.

Qəlbim hökm edir ki, təzə yolla get,
Sevincə əl uzat, qəmə sinə gər,
Nadanın sifəti sönmüş planet,
Qananın çöhrəsi günəşə bənzər.

Bir zaman vücudum qara zindandı,
Ürəyim - işığa can atan dustaq,
Yaxşı ki, ruhumun şamları yandı,
Qaralır, qaralsın hücrəmdə çıraq.

İndi həyatımın hər günü - cümə,
Yerin təbəssümü, göyün gülüşü,
Gedirəm, Allahın nuru könlümə,
Şeytanın işığı gözümə düşür.

## MƏZAR DAŞINA YAZI

İnsan olub dünyaya
Gəldim yaşamaq üçün,
Bu yerləri münasib
Bildim yaşamaq üçün

Dost araya-araya,
Qəlbim döndü saraya,
Ömrü ağa-qaraya
Böldüm yaşamaq üçün

İsitmədi közünə,
Saldı çölün düzünə,
Əcəlin də üzünə
Güldüm yaşamaq üçün.

Yıxılsam da atımdan,
Bezmədim həyatımdan,
Yamanlığı yadımdan
Sildim yaşamaq üçün.

Küləyə sinə gərdim,
Axır gülümü dərdim,
Yaşasaydım, ölərdim,
Öldüm yaşamaq üçün.

## HƏYAT YOLDAŞIMIN CİB DƏFTƏRİNƏ

Sən yarım əsrlik ömür yolunun
Mənimlə keçmisən tən yarısını,
Gözünün içindən doğub günəşim,
Tutanda yolların çən yarısını.

Çəkib boğazımı dara tellərin,
Vurub ürəyimə yara tellərin,
Görmürəm çoxunu qara tellərin,
Ağardıb saçının tən yarısını.

Əlimi-qolumu salaraq bəndə,
Bir zaman qəddimi fələk əyəndə,
Dözümüm-taqətim zəifləyəndə,
Çəkmisən yükümün sən yarısını.

Ən incə sətirli şeirlərimin,
Hörmətli, xətirli şeirlərimin,
Məhəbbət ətirli şeirlərimin,
Eşqinlə yazmışam mən yarısını.

Kim deyir, iynəylə daş oyacaqsan,
Kim deyir, qəm yükü daşıyacaqsan,
Hələ indən belə yaşayacaqsan
Mübarək ömrünün şən yarısını.

## LAYLA DE, YUXUDAN OYANIM, ANA

Həzin laylaların uyutdu məni,
Əslimdən-kökümdən soyutdu məni,
Yenə timsah olub dərd uddu məni,
Tək sənsən halımı duyanım, ana,
Elə bir layla de, oyanım, ana.

Bu yuxu quzunu qurda yem eylər,
Ağlı kəsəni də ağlıkəm eylər,
Halımdan xəbəri olan qəm eylər,
Yoxdur səndən özgə həyanım, ana,
Elə bir layla de, oyanım, ana.

Doğma yurd yerində qərib bəxtimi,
Yadlar ayağına sərib bəxtimi,
Qəflət yuxusuna verib bəxtimi,
Ay mənə bu zülmü qıyanım, ana,
Elə bir layla de, oyanım, ana.

Cənnət meyvələri qoxu üçündür,
Mənim çəkdiklərim çoxu üçündür,
Niyə laylaların yuxu üçündür,
Bəstəkarım ana, müğənnim ana,
Elə bir layla de, oyanım, ana.

Elə o beşikdə, elə o yaşda,
Elə o kiprikdə, elə o qaşda,
Elə o daxmada, elə o başda
Elə o kəlmədən boylanım, ana,
Elə bir layla de, oyanım, ana.

Səsi yadımdadı o bulağın da,
Qaldım zaman adlı yol qırağında,
Yatırıb oğlunu fil qulağında,
Sonra dərdlərini sayanım, ana,
Elə bir layla de, oyanım, ana.

Düz yoldan qayıtdım, tərs yola döndüm,
Bilmədim rəqiblə qol-qola döndüm,
Gah sağa çevrildim, gah sola döndüm,
Yaradı o yanım, bu yanım, ana,
Elə bir layla de, oyanım, ana.

Düşmənim bir ikən min olasıdır,
Yolum döngələnib tin olasıdır,
Demə, yuxularım çin olasıdır,
Dilə gəl, a dinim, imanım ana,
Elə bir layla de, oyanım, ana.

Nə yansın, nə batsın sonrakı ağlım,
Əvvələ qayıtsın sonrakı ağlım,
Bəxtimi oyatsın sonrakı ağlım,
A könlü həsrətdən doyanım, ana,
Elə bir layla de, oyanım, ana,

Sarılım silaha igidlər kimi,
Dolaşmayım ”canlı meyitlər” kimi,
Vətənə can qıyan şəhidlər kimi
Qoy mən də qanıma boyanım, ana,
Elə bir layla de, oyanım, ana.
Mənə bir layla de, oyanım, ana!

www.k

Kaspi.-2018.-15-17 dekabr.-S.23.